**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MÜŞFİQ CABİR OĞLU BAYRAMOV**

# AZƏRBAYCANIN ORTA ƏSR KƏND TİPLİ YAŞAYIŞ YERLƏRİ (IX-XIII ƏSRİN ƏVVƏLLƏRİ)

**5505.02-Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2015**

Dissertasiya işi AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun "Orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

*Elmi rəhbər:* **Tarix Meyrut oğlu Dostiyev**
**tarix elmləri doktoru**

Rəsmi opponentlər **İlyas Atabala oğlu Babayev**
**AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor**

**Nərgiz Ağasəlim qızı Əliyeva**
**tarix elmləri doktoru**

Aparıcı elmi müəssisə: **Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**"Ümumi tarix" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən 5505.02. "Arxeologiya" ixtisası üzrə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən FD. 01.171 saylı Dissertasiya Şurasının «_27___»__05_________2015-ci il tarixli iclasında saat ____da keçiriləcəkdir.

Ünvan: Bakı-Az - 1043, H.Cavid prospekti 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «____»________________2015-ci il tarixdə göndərilmişdir.

FD. 01.171
Dissertasiya şurasının elmi katibi **Səfər Hüseyn oğlu Aşurov**
**tarix üzrə fəlsəfə doktoru**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı. Orta əsrlərdə yaşayış məskənlərinin müxtəlif tipləri mövcud olmuş və onlar daim bir-biri ilə əlaqədə fəaliyyət göstərmişdir. Azərbaycanın orta əsr arxeologiyasında şəhər və şəhər tipli yaşayış yerləri nisbətən yaxşı öyrənilsə də, kənd tipli yaşayış yerləri lazımi səviyyədə öyrənilməmişdir. Dövrün orta əsr şəhərləri haqqında bir çox elmi məqalə və kitablar dərc olunmuş, onların sosial-iqtisadi durumu, plan quruluşu, memarlığı, əhalisinin məşğuliyyəti haqqında əsaslı tədqiqatlar aparılmış, lakin orta əsr kəndlərinə həsr olunmuş ümumiləşdirici tədqiqat əsəri yazılmamışdır.

Orta əsr yazılı qaynaqlarında da Azərbaycanın şəhər və şəhər tipli yaşayış məskənləri haqqında xeyli məlumat verildiyi halda dövrün kənd məskənləri haqqında məlumatlar çox cüzidir və səthi xarakter daşıyır.

Şübhəsiz ki, Azərbaycan kəndlərinin həyat mənzərəsinin bərpa edilməsində, kəndlərin sosial-iqtisadi və mədəni inkişafının səciyyəvi xüsusiyyətlərinin üzə çıxarılmasında çox qiymətli mənbə arxeoloji materiallardır. Yalnız geniş arxeoloji tədqiqatlar aparmaqla orta əsr kənd əhalisinin təsərrüfat məşğuliyyəti, məişəti, sosial durumu, mədəni səviyyəsi, dini görüşləri, kənd nahiyəsi ilə şəhərin inzibati, iqtisadi əlaqələrini öyrənmək mümkündür.

Nəzərə almaq lazımdır ki, orta çağda yaşayış məskənlərinin əksəriyyətini kəndlər təşkil edirdi. Ölkə iqtisadiyyatında kənd təsərrüfatının rolu böyük idi. Kənd yaşayış yerlərini öyrənmədən feodal cəmiyyətini hərtərəfli tədqiq etmək qeyri-mümkündür. Lakin bütün bunlara baxmayaraq, kənd yaşayış məskənləri uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalmış, bu sahə lazımi səviyyədə araşdırılmamışdır. Həmçinin ayrı-ayrı bölgələrdə yerləşən kənd tipli yaşayış yerlərinin arxeoloji öyrənilməsi də eyni səviyyədə deyil. Quba-Xaçmaz, Gəncə-Qazax bölgələrində, Azərbaycan Respublikasının cənub-şərqində, Naxçıvan diyarında orta əsr kənd yaşayış yerləri aşkarlanaraq xəritələşdirildiyi və onların bir neçəsi arxeoloji qazıntılarla tədqiq edildiyi halda, digər bölgələrdə yerləşən kənd yaşayış yerləri sistemləşdirilməmiş və onlar elmi tədqiqata cəlb edilməmişdir.

Son otuz il ərzində bir neçə abidədə geniş arxeoloji qazıntılar aparılmasına baxmayaraq, onların nəticələrinin ümumilikdə təhlil olunmasına, əldə olunan materialların sistemləşdirilməsinə cəhd edilməyib və ümumazərbaycan aspektindən kənd tipli yaşayış məskənlərinin

araşdırılması müstəqil tədqiqat obyekti olmamışdır. Halbuki, belə tədqiqatın aparılması mövcud boşluğun aradan qaldırılmasında çox böyük aktuallıq kəsb edir.

Yuxarıda deyilənləri nəzərə alaraq orta əsr kənd yaşayış yerlərinin öyrənilməsi tədqiqat mövzusu seçilmişdir.

Tədqiqatın xronoloji çərçivəsi. Dissertasiya mövzusu IX-XIII əsrin əvvəllərini əhatə edir. Tədqiqat üçün belə bir zaman kəsiyinin müəyyənləşdirilməsi bir tərəfdən ölkənin sosial-iqtisadi, siyasi və mədəni inkişafının xüsusiyyəti ilə, digər tərəfdən isə tədqiqatın mənbəşünaslıq bazası ilə bağlıdır. Ərəb xilafəti dağıldıqdan sonra ölkənin sosial-iqtisadi, siyasi və mədəni inkişafında yeni mərhələnin yaranması, yerli dövlətlərin meydana gəlməsi ölkə ərazisində yeni-yeni yaşayış məskənlərinin salınması ilə əlamətdar olmuşdur.

IX-XII əsrlərdə Azərbaycanda feodal münasibətləri özünün ən yüksək inkişaf dövrünü keçirirdi. Ölkə ərazisində müstəqil feodal dövlətlərinin yaranması nəticəsində kənd təsərrüfatı və sənətkarlıq xeyli inkişaf etmişdi.

Şəhərlərin yüksəlişi və şəhər həyatının canlanması kənd nahiyələrinin genişlənməsinə, inkişafına müsbət təsirini göstərmiş, şəhər və kəndin qarşılıqlı əlaqələri bütövlükdə ölkənin inkişafına təkan vermişdir. Bu yüksələn inkişaf monqol işğalı ilə dayandırılmışdır. XIII əsrdə monqol yürüşləri, daha sonra Hülakilər dövləti ilə Qızıl Orda dövləti arasındakı müharibələr kənd məskənlərinin dağılması və tərk olunmasına səbəb olmuşdur.

Arxeoloji qazıntılar aparılan kənd tipli yaşayış yerlərinin əksəriyyətində mədəni təbəqə yatımı əsasən IX-XIII yüzilliyin əvvəllərini əks etdirir.

Yuxarıda qeyd olunanlar mövzunun xronoloji çərçivəsinin IX-XIII əsrin əvvəlləri zaman kəsiyində müəyyənləşdirilməsinə əsas vermişdir.

Problemin öyrənilmə dərəcəsi. Orta əsr kənd məskənlərinin tədqiqi uzun müddət diqqətdən kənarda qalmışdır. Yazılı qaynaqlarda orta əsr kəndləri haqqında məlumat cüzi, qeyri ardıcıl olduğundan tarixçilərin araşdırılmalarında bu problem demək olar ki, tədqiqat obyekti olmamışdır. Yalnız M.X.Şəriflinin monoqrafiyasında Azərbaycan kəndlərinin IX-XI əsrlərdəki həyatı haqqında ciddi təhlillər qeyd olunmalıdır.

Orta əsr kənd məskənlərinin arxeoloji tədqiqinə isə keçən əsrin 50-ci illərindən başlanılmışdır. Bu tədqiqatları xarakter və intensivliyinə görə üç mərhələyə bölmək olar.

50-60-cı illərdə aparılan tədqiqatlar məhdud xarakterli qazıntılarla, qeyri-ardıcıl qeydə alınmış abidələrin ilkin tədqiqatı ilə səciyyələnir.

Keçən əsrin 70-80-ci illərini əhatə edən ikinci mərhələ Azərbaycan Respublikasının şimal-şərq, cənub-şərq bölgələrində və Naxçıvan Muxtar Respublikasında abidələrin külliyyatının hazırlanması ilə əlaqədar məqsədyönlü, sistemli arxeoloji tədqiqatlar nəticəsində onlarla kənd tipli yaşayış yerinin qeydə alınması, xəritələşdirilməsi və onların bəzilərində sonradan geniş miqyaslı arxeoloji qazıntıların aparılması ilə əlamətdar olmuşdur. Sonuncular sırasında Sərkərtəpə və Sandıqtəpə orta əsr kənd tipli yaşayış yerlərinin arxeoloji qazıntılarını xüsusi ilə qeyd etmək lazımdır. Məhz bu arxeoloji qazıntılar kiçik sahəli kənd məskənlərinin həyat mənzərəsini maddi-mədəniyyət qalıqları əsasında bərpa etməyə imkan vermişdir. Bu mərhələdə orta əsr kənd tipli yaşayış yerlərinin tədqiqində arxeoloqlardan C.Ə.Xəlilov, Q.O.Qoşqarlı, A.Ş.Orucov, T.M.Dostiyev, V.B.Baxşəliyev, Ə.İ.Novruzlu, A.B.Nuriyev və başqalarının xidmətləri xüsusi ilə qeyd olunmalıdır.

Müstəqillik dövrünün ilk illərində bütün elm sahələrində olduğu kimi arxeologiya elmində də müəyyən çətinliklər özünü büruzə verdi. Maliyyə çatışmazlığı səbəbindən çöl tədqiqatları müəyyən müddətə dayandırıldı. Lakin Azərbaycan dövləti güclədikcə keçid dövrü ilə əlaqədar yaranmış çətinliklər aradan qaldırıldı. Xüsusi ilə ümummilli lider Heydər Əliyev və onun müəyyən etdiyi siyasi xətti uğurla davam etdirən Prezident İlham Əliyevin arxeologiya elminə qayğısı nəticəsində XXI əsrin ilk onilliklərində Azərbaycanın bütün bölgələri arxeoloji tədqiqatlara cəlb olunub, müxtəlif dövrlərə aid müxtəlif tipli abidələr arxeoloji qazıntılarla öyrənilir. Orta əsr kənd tipli yaşayış yerləri də istisna təşkil etmir. Son on ildə bu istiqamətdə də mühüm uğurlar əldə olunub. Xüsusi ilə qeyd etmək istərdik ki, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin və Bakı-Ərzurum Cənubi Qafqaz qaz kəmərinin inşaatı ilə əlaqədar kəmərlərin keçdiyi ərazilərdə ciddi arxeoloji tədqiqatlar aparılmış, 40-dan artıq abidə arxeoloji baxımdan öyrənilmişdir. Həmin abidələr sırasında Faxralı, III Hacıalılı, Daşbulaq, I Qıraq Kəsəmən abidələri də vardır. Bu abidələrin arxeoloji qazıntılarının nəticələrinin elmi dövriyyəyə daxil edilməsində T.M.Dostiyev, M.M.Hüseynov. B.M.Cəlilov, Ş.N.Nəcəfov, V.A.Kvadçidze və başqalarının xidmətləri vardır.

2008-2013-cü illərdə Azərbaycan Respublikasının ayrı-ayrı bölgələrində aparılan arxeoloji tədqiqatlar nəticəsində xeyli sayda orta əsr kənd tipli yaşayış yeri qeydə alınıb və elmi dövriyyəyə daxil edilmişdir.

Bizim tədqiqat üçün Həbib Şahbazinin İranın Ərdəbil bölgəsində apardığı arxeoloji tədqiqatlar da müəyyən maraq doğurur. Onun dissertasiyasının bir fəsli Ərdəbil bölgəsinin kənd tipli yaşayış yerlərinə həsr edilmişdir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın başlıca məqsədi Azərbaycanın IX-XIII əsrlər kənd tipli yaşayış yerlərini tədqiq etmək, onların arxeoloji səciyyəvi xüsusiyyətlərini üzə çıxarmaq, yaşayış yerlərindən əldə olunmuş materialların tipoloji təsnifatını vermək, əldə olunmuş faktiki materiallar əsasında dövrün kəndlərinin sosial-iqtisadi və mədəni inkişaf səviyyəsini müəyyənləşdirmək, feodal cəmiyyətində kəndlərin rolunu müəyyən etməkdən ibarətdir. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı konkret vəzifələr müəyyənləşdirilmişdir.

- Ayrı-ayrı bölgələrdə yerləşmiş orta əsr kənd yaşayış yerlərini sistemləşdirmək və onların səciyyəsini vermək.
- Arxeoloji qazıntılar zamanı kənd yaşayış yerlərindən toplanmış faktiki materiallar və yazılı mənbə məlumatları əsasında orta əsr yaşayış məskənlərinin inkişaf səviyyəsini təyin etmək;
- Kənd tipli yaşayış yerlərindən arxeoloji qazıntılar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinin səciyyəsini, tipoloji təsnifatını vermək;
- Qazıntılar və kəşfiyyat xarakterli tədqiqat işləri zamanı dövrün kənd yaşayış yerlərindən əldə olunmuş faktiki materiallar əsasında kənd yaşayış yerlərinin sosial-iqtisadi və mədəni inkişafını tədqiq etmək.

Tədqiqatın metodoloji bazası. Dissertasiya işinin metodoloji əsasını tarixi hadisə və prosesləri inkişafda dərk etməyə, obyektiv nəticələr çıxarmağa imkan verən dialektik və materialist baxış təşkil edir. Problemə bu mövqedən yanaşma faktiki materialların təhlili və sistemləşdirilməsində, onların şərhində, istehsal prosesini bərpa etməkdə tam yararlı və səmərəlidir.

Tədqiqat prosesində müqayisəli təhlil, statistik və tipoloji metodlar əsas götürülmüşdür.

Tədqiqatın mənbə bazası. Ərəb, fars və digər dillərdə yazılmış mənbələrdə Azərbaycanın orta əsr kənd tipli yaşayış yerləri haqqında məlumatların az olmasına baxmayaraq bizim tədqiqat üçün onlar olduqca qiymətlidir. Bu baxımdan ərəb coğrafiyaşünas səyyahlarından Əbu Düləf, əl-Müqəddəsi, əl-Məsudi, Əbu Həmid əl-Əndəlusi əl-Qərnati, Yaqut əl-Həməvinin əsərləri xüsusi ilə qeyd olunmalıdır.

Orta əsr kənd yaşayış yerlərində aparılmış arxeoloji tədqiqatlar və qazıntılar zamanı aşkar edilmiş materiallar dissertasiya işinin əsas mənbə bazasını təşkil edir. Bu mənada Dərəzarat, Sərkərtəpə, Seyidli, Sandıqtəpə, Yurdçu, I Qıraq Kəsəmən, Daşbulaq, Faxralı, III Hacıalılı, Polutəpə və Qaratəpə abidələrində aparılan arxeoloji qazıntılardan əldə olunmuş arxeoloji materiallar daha çox diqqətəlayiqdir.

Tədqiqatın elmi yeniliyi. Hər şeydən əvvəl ondan ibarətdir ki, Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq müxtəlif xarakterli mənbələrin təhlilinə istinadən Azərbaycanın orta əsr kəndlərinin tarixi-arxeoloji baxımdan əsaslı şəkildə öyrənilməsinə cəhd göstərilmişdir. Orta əsr kənd tipli yaşayış yerləri ilk dəfə olaraq külli halda elmi dövriyyəyə daxil edilmişdir. Azərbaycan orta əsr kənd yaşayış yerlərindən arxeoloji qazıntılar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələri təhlil edilmiş, onların tipoloji təsnifatı verilmiş, şəhər yaşayış yerlərindən aşkar edilmiş materiallarla oxşar və fərqli cəhətlərə diqqət yetirilmişdir. Əldə olunmuş faktiki materiallar əsasında dövrün kənd məskənlərinin ölkə iqtisadiyyatındakı yeri müəyyənləşdirilmiş, kənd əhalisinin təsərrüfat məşğuliyyətində əkinçilik, maldarlıq, bağçılıq, bostançılıq və s. ilə yanaşı sənətkarlığın bəzi sahələri, o cümlədən dəmirçiliyin, dulusçuluğun, toxuculuğun və digər sənət sahələrinin mövcudluğu təsdiqlənmişdir.

Tədqiqatın əməli əhəmiyyəti. Dissertasiya işinin nəticələri aşağıdakı sahələrdə tətbiq oluna bilər.

Azərbaycanın orta əsrlər tarixinin, arxeologiyasının elmi problemlərinin həllində;

Orta əsr kənd yaşayış məskənlərinin tarix və arxeologiyası üzrə ümumiləşdirici əsərlərin yazılmasında;

Azərbaycanın orta əsr arxeoloji abidələri üzrə ümumiləşdirici əsərin yazılmasında;

Ali məktəblərdə tarix və arxeologiya üzrə seçmə fənlərin tədrisində

Dissertasiyanın aprobasiyası. Tədqiqatın əsas məzmunu müəllif tərəfindən müxtəlif elmi konfransların materiallarında və jurnallarda nəşr edilmiş tezis və məqalələrdə öz əksini tapmışdır. Dissertasiya işi "Orta əsrlər arxeologiyası" şöbəsinin genişləndirilmiş iclasında iki dəfə müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir.

Dissertasiyanın strukturu. Tədqiqatın qarşısında duran vəzifələrlə şərtlənən dissertasiyanın strukturu giriş, dörd fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı, xəritə və illüstrasiyalardan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı, xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə dərəcəsi səciyyələndirilmiş, məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası, mənbə bazası, elmi yeniliyi və əməli əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın birinci fəsli "Azərbaycanın orta əsr kənd tipli yaşayış yerlərinin öyrənilmə tarixi" adlanır. Dövrün kənd tipli yaşayış yerlərinin arxeoloji tədqiqinə XX əsrin ikinci yarısında başlanmışdır. Bu vaxta qədər bəzi orta əsr kənd yaşayış yerləri qeydə alınsa da, onlar arxeoloji tədqiqatlara cəlb edilməmişdir. Orta əsr kənd yaşayış yerlərinin öyrənilməsi mərhələlərinə uyğun olaraq bu fəsil üç yarımfəslə ayrılır.

Birinci yarımfəsil "XX əsrin 50-60-cı illərində orta əsr kənd tipli yaşayış yerlərində aparılan arxeoloji tədqiqatlar" adlanır. Bu mərhələdə 2 abidədə geniş miqyaslı arxeoloji qazıntı işləri aparılmışdır. Bunlardan biri Beyləqan rayonu ərazisində yerləşən Qaratəpə, digəri Xızı rayonunun Altıağac kəndinin şimalında yerləşən Dərəzarat kənd tipli yaşayış yeridir. Birinci mərhələdə həmçinin Şamaxı rayonu ərazisində Quşqana, Xanyurdu, Kəndyeri, Gümüşlü, Dağ Kolanı, Şimal-Şərqi Azərbaycanda Liqar, Rotar, Köhnə Xudat, Şəmkir rayonu ərazisində Keçili, Cəlilabad rayonu ərazisində Şilvəngə, İmişli rayonu ərazisində Muxurtəpə orta əsr kənd tipli yaşayış yerləri aşkar edilmiş və həmin abidələrdə ilkin arxeoloji tədqiqatlar aparılmışdır. Qeyd etmək lazımdır ki, bu mərhələdə orta əsr kənd tipli yaşayış yerlərinin tədqiqi məqsədyönlü, sistemli xarakter daşımamışdır.

Birinci fəslin ikinci yarımfəsli "XX əsrin 70-80-ci illərində orta əsr kənd tipli yaşayış yerlərinin arxeoloji öyrənilməsi" adlanır. Orta əsr kənd tipli yaşayış yerlərinin öyrənilməsində ikinci mərhələ 1973-cü ildə Şamaxı rayonu ərazisində yerləşən Ağzəmi orta əsr kənd tipli yaşayış yerinin aşkar edilməsi ilə başlayır və 20 illik bir dövrü əhatə edir. Bu mərhələlərdə Şimal-Şərqi Azərbaycan ərazisində yerləşən orta əsr kənd tipli yaşayış yerlərinin xəritəsi müəyyənləşdirilmiş, Sərkərtəpə, Sandıqtəpə, Seyidli orta əsr kənd tipli yaşayış yerlərində geniş miqyaslı arxeoloji qazıntılar aparılmışdır. Respublikanın digər bölgələrində, xüsusi ilə cənub-şərqində və Naxçıvan diyarında yerləşən orta əsr kənd tipli yaşayış yerlərinin aşkar edilməsi, qeydə alınması, xəritələşdirilməsi sahəsində xeyli işlər görülmüş, həmin abidələrdə ilkin arxeoloji tədqiqatlar aparılmışdır.

Birinci fəslin "XX əsrin sonu -XXI əsrin əvvəllərində orta əsr kənd tipli yaşayış yerlərinin arxeoloji öyrənilməsi" adlanan üçüncü yarımfəsli

Azərbaycanın müstəqillik illərində aparılmış tədqiqatları əhatə edir. Müstəqilliyimizin ilk illərində, keçid dövrünün çətinlikləri ilə əlaqədar digər sahələrdə olduğu kimi çöl arxeoloji tədqiqatlarında da çətinliklər yarandı, müəyyən müddətə maliyyə çatışmazlığından arxeoloji ekspedisiyaların fəaliyyəti dayandırıldı. Amma keçid dövrünün bütün çətinliklərinə baxmayaraq bu mərhələdə Azərbaycan arxeologiya elminin inkişafında bir sıra əlamətdar hadisələr baş verdi. İlk növbədə 1993-cü ildə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutu nəzdindəki Arxeologiya və Etnoqrafiya sektoru əsasında müstəqil Arxeologiya və Etnoqrafiya İnstitutunun təşkil edilməsini qeyd etmək lazımdır. Bu, şübhəsiz ki, Azərbaycan dövlətinin xalqımızın qədim tarixinin və mədəni irsinin öyrənilməsinə xüsusi önəm verməsinin bariz təzahürü idi. Bu illər həm də 70-80-ci illərdə aparılmış çöl arxeoloji tədqiqatlarının nəticələrinin elmi süzgəcdən keçirilərək ümumiləşdirilmiş əsərlərin yazılması ilə əlamətdar oldu.

2004-2005-ci illərdə "Əsrin müqaviləsi" layihəsi çərçivəsində Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (CQBK) neft-qaz boru kəmərlərinin çəkilişinə başlanması Azərbaycanın arxeoloji abidələrinin, eləcə də orta əsr kənd tipli yaşayış yerlərinin öyrənilməsini sürətləndirdi. Kəmərlərin keçdiyi ərazidə 40-dan artıq abidə, o cümlədən bir neçə orta əsr kənd tipli yaşayış yeri aşkar edilib arxeoloji qazıntılara cəlb edilmişdir.

Üçüncü mərhələdə Gəncə-Qazax bölgəsində yerləşən III Hacıalılı, I Qıraq Kəsəmən, Daşbulaq, Faxralı, Cəlilabad rayonu ərazisində Polutəpə, İmişli rayonu ərazisində yerləşən Muxurtəpə orta əsr kənd tipli yaşayış yerləri geniş miqyaslı arxeoloji qazıntılarla öyrənilmişdir. 1983-cü ildən arxeoloji qazıntılarla öyrənilməyə başlanan I Sandıqtəpə kənd tipli yaşayış yerinin qazıntısı başa çatdırılmışdır. Respublikanın ayrı-ayrı bölgələrinə təşkil edilmiş ekspedisiyaların fəaliyyəti nəticəsində digər növ arxeoloji abidələrlə yanaşı orta əsr kənd tipli yaşayış yerləri də aşkar edilmiş, onlar ilkin arxeoloji tədqiqatlarla öyrənilmiş, bəzilərində mədəni təbəqənin stratiqrafiyasını müəyyənləşdirmək məqsədi ilə yoxlama qazıntısı aparılmışdır.

Beləliklə, XX əsrin ikinci yarısından başlayaraq bu günə qədər aparılmış arxeoloji tədqiqatlar nəticəsində 1 orta əsr kənd tipli yaşayış yerinin qazıntısı başa çatdırılmış, 12 orta əsr kənd tipli yaşayış yerində geniş miqyaslı qazıntı işi aparılmış, onlarla kənd tipli yaşayış yerində mədəni təbəqənin straratiqrafiyasını müəyyənləşdirmək məqsədi ilə şurf qazıntısı qoyulmuş, respublikanın müxtəlif bölgələrində yerləşən orta əsr kənd tipli yaşayış yerlərinin külliyyatının hazırlanması və xəritələşdirilməsi sahəsində

mühüm işlər görülmüşdür.

Dissertasiya işinin ikinci fəsli "Orta əsr kənd tipli yaşayış yerlərinin arxeoloji səciyyəsi" adlanır. Bu fəsil iki yarımfəslə ayrılmışdır. Birinci yarımfəsil "Azərbaycan kəndlərinin yazılı qaynaqlarda təsviri" adlanır. Həmin yarımfəsildə orta əsr ərəb coğrafiyaşünas səyyahlarının Azərbaycanın orta əsr kəndləri haqqındakı məlumatları toplanmışdır. Orta əsr ərəb müəlliflərindən İbn Xordadbeh, İbn əl-Fəqih əl-Həmədani, İbn Rusta, Qudama ibn Cəfər, əl-Məsudi, Əbu Düləf, əl- İstəxri, Əbu Həmid əl-Əndəlusi əl-Qərnati, İbn Havqəl, əl-Müqəddəsi, Yaqut əl-Həməvi və başqaları Azərbaycanın IX-XII əsrlərdəki kəndlərinin coğrafi mövqeyi, təsərrüfat həyatı, kənd əhalisinin dini görüşləri və s. haqqında maraqlı məlumatlar verir. Həmin məlumatların ardıcıl və əhatəli olmamasına baxmayaraq, apardığımız tədqiqat üçün onlar böyük elmi əhəmiyyət daşıyır.

XII əsrin sonu - XIII əsrin əvvəllərində yaşamış görkəmli ərəb ensiklopedist alimi, səyyahı Yaqut əl-Həməvinin əsərləri Azərbaycanın monqollara qədər dövrün iqtisadi, mədəni həyatı, eləcə də dövrün tarixi coğrafiyasını tədqiq etmək baxımından olduqca əhəmiyyətlidir . O, "Mucəm əl-buldən" əsərində ayrı-ayrı ölkələr və bu ölkələrdə olan dağ, düz, dərələr, qəsəbələr, çaylar, göllər və s. haqqında məlumat verir. Onun əsərlərində Azərbaycanın orta əsr kəndləri haqqında nisbətən geniş məlumata rast gəlirik. Bu əsərdəYaqut əl-Həməvi Azərbaycanda olan kənd yaşayış məskənlərini "qarya" termini ilə xarakterizə edir.

II fəslin ikinci yarımsfəsli "Azərbaycan kəndlərinin arxeoloji səciyyəsi adlanır."

Azərbaycanın feodal cəmiyyətinin öyrənilməsində orta əsr kənd yaşayış yerlərinin arxeoloji öyrənilməsi xüsusi önəm daşıyır.

Azərbaycanda kəndlər yaşayış məskənlərinin xarakterik və tarixən geniş yayılmış tiplərindən biridir. Kənd-oturaq əhaliyə məxsus daimi yaşayış evləri, təsərrüfat tikililəri, həyətyanı sahələri, inzibati, sosial-mədəni, dini mərkəzləri, ümumi otlaq və əkin sahələri, içməli su ehtiyatları, ayrıca qəbiristanlığı olan və əhalinin etnik tərkibinin ümumiliyi ilə xarakterizə olunan tarixən formalaşmış yaşayış məskənidir.

Orta əsr kənd yaşayış yerlərinin aydın yerüstü əlamətləri yoxdur. Şəhər yaşayış yerləri ilə müqayisədə onlar çox az əraziyə malik olmuş, tikinti və təsərrüfat işləri zamanı daha çox dağıntılara məruz qalmışdır.

Son dövrlərdə kənd tipli yaşayış yerlərində aparılmış arxeoloji tədqiqatlar orta əsr müəlliflərinin Azərbaycan kəndləri haqqında verdiyi

məlumatları təsdiq edir. Arxeoloji tədqiqat işləri zamanı orta əsrlərə aid kənd yaşayış yerlərinin böyük bir qismi aşkarlanmış, bəzilərində geniş miqyaslı qazıntı işləri aparılmış, digərləri isə yalnız kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir.

Kənd yaşayış yerlərində aparılmış qazıntı və tədqiqatlardan məlum olmuşdur ki, orta əsr kəndləri əvvəllər yaşayış olmayan sahələrdə (I Qıraq Kəsəmən, Seyidli, Daşbulaq, III Hacıalılı, Çobanabdallı, Faxralı, Yurdçu, Karvan və s.), bəzən isə əvvəllər yaşayış məskəni kimi istifadə olunmuş ərazilərdə (Qaratəpə, Sərkərtəpə, Ağcaaşıq, Çiləgir, Yurdyerləri, Türkyeri, Sandıqtəpə, Vilvan və s.) salınmışdır. Sonuncu kənd yaşayış yerlərində bir neçə tarixi dövrün izləri qalmışdır.

Aparılmış tədqiqatlar orta əsr kənd yaşayış yerlərinin həm topoqrafik baxımdan, həm də sahəsinə görə bir-birindən fərqli olduğunun deməyə əsas verir.

Orta əsr kəndləri sahəsinə görə böyük, orta və kiçik ölçülü olmaqla 3 qrupa bölünür. Böyük kənd tipli yaşayış yerlərinə ərazisi 3 hektardan çox olan abidələr daxildir. Bu qrupa daxil olan yaşayış yerlərinə misal olaraq Seyidli, Çiləgir, Qalagilər, Yurdyerləri, Xocalı-yalı, Köhnə Vayxır, Türkyeri, Polutəpə, Gənzə, Viyənd, Gorantəpə və digər kəndləri göstərmək olar.

Orta ölçülü kənd tipli yaşayış yerlərinə ərazisi 1 hektardan çox, lakin 3 hektardan az olan kənd yaşayış yerləri daxildir. Bu qrupa I Qıraq Kəsəmən, Daşbulaq, Xuray, Nöhürdüzü, Kərpicli, Babəki, Yeycə, və digər yaşayış yerləri daxildir. Bu abidələrdən I Qıraq Kəsəmən, Daşbulaq və Muxurtəpədə genişmiqyaslı arxeoloji qazıntı işləri aparılmışdır.

Dövrün kənd tipli yaşayış yerlərinin əsas hissəsini kiçik kənd məskənlərinin qalıqları təşkil edir. Sahəsi bir hektardan artıq olmayan Sərkərtəpə, Sandıqtəpə, III Hacıalılı, Yaquboba, Mollavəlidli, Kanadi, Kamilikəqo, Nadir təpəsi, Səreyin və digər yaşayış yerləri kiçik kənd tipli yaşayış yerlərinə aiddir.

Yaşayış yerlərinin topoqrafiyasından və yazılı mənbələrdən məlum olur ki, yaşayış məskəni salınarkən ilk növbədə onun inkişafına təsir edəcək bütün amillər: münbit, məhsuldar torpağın, su mənbələrinin mövcudluğu, əlverişli təbii-iqlim şəraiti və s. nəzərə alınırdı.

Arxeoloji və etnoqrafik tədqiqatların nəticələrinə əsaslanaraq belə qənaətə gələ bilərik ki, orta əsrlərdə kəndlər topoqrafik baxımdan əsasən su mənbələrinə yaxın olan münbit düzən ərazilərdə, dağ yamaclarında salınmışdır .

Yuxarıda qeyd olunanlara əsaslanaraq Azərbaycanın orta əsr kənd tipli yaşayış yerlərini topoqrafik baxımdan 2 qrupa ayırmaq olar:

1. Düzən kəndlər
2. Dağlıq və dağətəyi kəndlər

Azərbaycanın kənd yaşayış məskənlərinin topoqrafik quruluşuna görə ən böyük qrupunu düzənlik kəndlər təşkil edirdi. Əhalisinin əsas məşğuliyyəti əkinçilik olan düzənlik kəndləri çox vaxt aran kəndləri də adlanırdı. Düzənlik sahədə kənd yaşayış yerləri əsasən su hövzələri yaxınlığındakı təpələr üzərində salınmışdır. Düzən kəndlərə misal olaraq aşağıdakı kənd tipli yaşayış yerlərini göstərmək olar: Sərkərtəpə, Daşbulaq, III Hacıalılı, Çobanabdallı, Dəyirmantəpə, Axtıtəpə, Yaquboba, Yurdçu, Karvan, İlandağ və s.

Qeyd olunan abidələrdən Sərkərtəpə, Yaquboba, Axtıtəpə, Dəyirmantəpə yaşayış yerləri təpə üzərində salınıb, Daşbulaq, III Hacıalılı, Çobanabdallı yaşayış yerlərində relyef qabarıq müşahidə olunmur. Sərkərtəpə, Yaquboba, Axtıtəpə yaşayış yerləri çox təbəqəli olub üst təbəqələri orta əsrlərə aiddir. Daşbulaq, III Hacıalılı, Çobanabdallı kənd yaşayış yerləri isə bir təbəqəlidir.

Kənd yaşayış yerlərinin ikinci qrupunu dağlıq və dağətəyi zonada salınmış kəndlər təşkil edir. Dağlıq və dağətəyi zonada yaşayış məskənləri salınarkən həmin məskən ərazinin relyef və landşaftına uyğunlaşdırılırdı. Bu zaman dağ sürüşmələri, qar uçurumları və sel kimi təbiət hadisələrinin baş verməsi imkanları nəzərə alınır və təbii mühafizə olunan ərazilərə üstünlük verilirdi. Dağlıq və dağətəyi ərazilərdə yerləşən yaşayış yerlərinin əksəriyyəti dağ çaylarının hündür sahilində, dağın daha çox günəş şüaları düşən cənub və şərq yamaclarında, külək tutmayan ərazilərdə salınmışdır.

Dağlıq və dağətəyi kənd tipli yaşayış yerlərinə misal olaraq aşağıdakı kənd yaşayış yerlərini göstərmək olar. I Qıraq Kəsəmən, Sandıqtəpə, Dərəzarat, Kəndyeri, Quşqana, Qazançı, Köhnə Vayxır, Curuxev, Daştəpə və s.

Orta əsr kənd tipli yaşayış məskənlərindən Sərkərtəpə, Sandıqtəpə, Seyidli, Dərəzarat, I Qıraq Kəsəmən, Daşbulaq, III Hacıalılı, Faxralı, Qaratəpə, Polutəpə, Yurdçu, Muxurtəpə yaşayış yerlərində geniş miqyaslı qazıntı işləri aparılmışdır.

Orta əsr kənd yaşayış yerlərinin bir qismində - Qalaqantəpə, Çinartala, IV Qəflətəpə, Kəndyeri, Çobanabdallı, Mollavəlidli, Abbastəpə, I Kərpicli, II Kərpicli, Kürqırağı, Qurdtəpəsi, Tamaşalı, Türkyeri, Kanadi, Çuxur-Məhəllə - mədəni təbəqənin stratiqrafiyasını müəyyən etmək

məqsədi ilə kəşfiyyat xarakterli qazıntılar aparılmışdır.

IX-XIII əsrin əvvəllərinə aid orta əsr kənd tipli yaşayış yerlərinin böyük bir qismi isə yalnız yerüstü toplanmış arxeoloji materiallarla tədqiq edilmişdir. Tədqiqat işinə əsasən arxeoloji qazıntılar aparılmış abidələr cəlb edildiyindən ilkin arxeoloji tədqiqatlarla öyrənilmiş abidələrin hər biri haqqında dissertasiya işində ayrı-ayrılıqda məlumat verilməmişdir. Bunlardan yalnız bir neçəsi Taxtalar yeri, Tatlı, Ağzəmi, Kırna, Vilvan, Şilvəngə, Gorantəpə, Yelsuyu, Govurtəpə və Gənzə haqqında məlumat verilmişdir.

Arxeoloji qazıntılar və kəşfiyyat xarakterli tədqiqatlar zamanı orta əsr kənd yaşayış yerlərindən xeyli miqdarda maddi-mədəniyyət nümunələri: əmək alətləri, şirsiz və şirli saxsı məmulatı, bəzək əşyaları və s.əldə olunmuşdur. Dissertasiya işinin "Kənd yaşayış yerlərindən aşkar edilmiş arxeoloji materialların təsnifatı" adlı üçüncü fəslində bu materialların təhlili və təsnifatı verilmişdir. Bu fəsil "Saxsı məmulatı", "Metal məmulatı", "Şüşə, sümük və digər maddi–mədəniyyət nümunələri", "Bəzək əşyaları", "Sikkə tapıntıları" adlı beş yarımfəsilə bölünmüşdür.

Üçüncü fəslin birinci yarımfəsli "Saxsı məmulatı" adlanır. İstər arxeoloji qazıntılar, istərsə də kəşfiyyat xarakterli tədqiqat işləri zamanı toplanmış materialların əksəriyyətini saxsı məmulatı təşkil edir. Saxsı məmulatının araşdırılması nəticəsində müəyyən olunmuşdur ki, orta əsr kənd yaşayış yerlərində aşkar edilmiş saxsı materiallarının əsas hissəsi dulus çarxından istifadə edilməklə hazırlanmışdır. Bunların bir hissəsi kənd yaşayış yerlərinin özlərində istehsal edilmişdirsə, əksəriyyəti şəhərin kənd nahiyəsi ilə əlaqələri nəticəsində kənd məskənlərinə gətirilmişdir.

Orta əsr kənd yaşayış yerlərindən aşkar edilmiş saxsı məmulatı iki böyük bölməyə ayrılır. 1. Şirsiz saxsı məmulatı, 2. Şirli saxsı məmulatı.

Dövrün kənd yaşayış yerlərindən aşkar olunmuş şirsiz saxsı məmulatının təsnifatı aparılarkən başlıca olaraq bu qabların təsərrüfatda və məişətdə nə məqsədlə istifadə edildiyinə diqqət verilmiş və aşkar edilmiş şirsiz saxsı məmulatı təyinatına görə aşağıdakı kimi qruplaşdırılmışdır. Təsərrüfat qabları: küplər, nehrələr, sərniclər, dopular; su qabları: səhənglər, bardaqlar, küzələr; mətbəx qabları: qazanlar, qapaqlar, küpələr; süfrə qabları: boşqablar, kasalar, nimçələr, tayqulplar; işıqlandırma vasitələri: piydanlar, çıraqlar, şamdanlar; gigiyena ilə bağlı qablar: aftafalar, silbinclər. Şirsiz saxsı məmulatı cızma düz və dalğavarı xətlərdən, çərtmələrdən, batıqlardan, basma naxışlardan, yapma düyməciklərdən ibarət naxışlarla bəzədilmişdir.

Orta əsr kənd yerlərində arxeoloji qazıntılar və tədqiqat işləri zamanı toplanmış saxsı məmulatının ikinci bölməsini şirli saxsı məmulatı təşkil edir. Kənd yaşayış yerlərindən toplanmış şirli saxsı məmulatının bədii işlənməsində, istehsal texnikasına görə iki mərhələ fərqlənir. Birinci mərhələ IX-X əsrləri əhatə edir və arxeoloji ədəbiyyatda erkən şirli saxsı qablar dövrü adlanır. Erkən şirli qablar əsasən süfrə qabları ilə təmsil olunmuşdur. Bunlar nimçə, kasa, boşqab, piyalə, duzqabılardan ibarətdir. Onların bədii işlənməsində həndəsi ornamentlərdən geniş istifadə olunmuşdur.

İkinci mərhələ IX-XIII əsrləri əhatə edir. Məlum olduğu kimi, XI-XIII əsrlərdə Azərbaycanda, eləcə də Cənubi Qafqazda dulusçuluq sənəti özünün çiçəklənmə dövrünü keçirmişdir. Bu özünü şirli saxsı qablar istehsalında daha qabarıq nümayiş etdirir. Saxsı nümunələr hazırlanarkən onlarda həndəsi fiqurların dəqiqliyinə, rənglənmə üsullarına və üzərindəki şəkillərə xüsusi diqqət yetirilirdi və bunun nəticəsində qeyri-adi ornamentlər alınırdı. Şirli saxsı məmulatının bədii işlənməsində heyvan və quş təsvirlərindən geniş istifadə olunurdu. Hər hansı bir təsviri verərkən qabın forması ilə onun bir-birini tamamlaması nəzərə alınırdı.

Bu dövrün şirli saxsı məmulatı keyfiyyət, forma mükəmməlliyi və bədii işlənməsinə görə əvvəlki şirli qablardan fərqlənir. Əvvəlki dövrdə olduğu kimi şirli qabların böyük əksəriyyətini süfrə qabları təşkil edir.

Orta əsr kənd yaşayış yerlərindən aşkar edilmiş bu dövrə aid şirli keramika məmulatı hazırlanma texnologiyasına və bədii tərtibatına görə qrup və tiplərə bölünmüşdür. Üçüncü fəslin ikinci yarımfəsli “Metal məmulatı” adlanır. Aparılmış arxeoloji qazıntılar zamanı kənd yaşayış yerlərindən xeyli miqdarda metal məmulatı toplanmışdır. Aşkar edilmiş tapıntılar təyinatına görə bir neçə qrupa bölünmüşdür. Bunlar əmək alətləri, silah nümunələri, bəzək əşyaları, numizmatik tapıntılar və s. ilə təmsil olunmuşdur. Aşkar edilmiş metal məmulatının əsas hissəsini dəmirdən əmək alətləri, silah nümunələri və mismarlar təşkil edir. Misdən və tuncdan hazırlanmış məmulat kəmiyyət etibarı ilə azdır.

Üçüncü fəslin üçüncü yarımfəsli “Şüşə, sümük və digər maddi mədəniyyət nümunələri” adlanır. Kənd yaşayış yerlərindən arxeoloji qazıntılar zamanı toplanmış materialların arasında şüşədən sümükdən və daşdan hazırlanmış müxtəlif artefaktlar vardır. Şüşə məmulatı əsasən süfrə qablarının qırıqlarından və flakonlardan ibarətdir. Şüşə qablar əsasən qırıqlar şəklində tapılmışdır. Şüşə məmulatı içərisində nisbətən yaxşı mühafizə olunanı və əksəriyyət təşkil edəni ətriyyat qabı kimi istifadə

olunmuş flakonlardır. Arxeoloji qazıntılar zamanı onlar Seyidli, Sandıqtəpə, Sərkərtəpə, I Qıraq Kəsəmən, III Hacıalılı, Kəndyeri və digər kənd tipli yaşayış yerlərindən həm qırıq, həm də bütöv halda tapılmışdır.

Kənd yaşayış yerlərindən aşkar edilmiş daş məmulatı dən daşları, bülöv daşları, həvənglər, iy ucluqları, çəki daşları və s. ilə təmsil olunmuşdur. Dən daşları, bülöv daşları, xüsusilə geniş yayılmışdır. Onlar həm bütöv, həm də fraqmentlər şəklində tapılmışdır.

Arxeoloji materiallar içərisində müxtəlif məqsədlər üçün istifadə edilmiş sümük materialı bizlər, iy başlıqları, şallaq dəstəyi və s. ibarətdir.

Üçüncü fəslin dördüncü yarımfəsli "Bəzək əşyaları" adlanır. Bu yarımfəsildə orta əsr kənd yaşayış yerlərindən aşkar edilmiş bəzək məmulatı araşdırılmışdır. Onu da qeyd edək ki, dövrün şəhər yaşayış yerləri ilə müqayisədə kənd yaşayış yerlərindən aşkar edilmiş bəzək əşyaları çox azdır. Bunun da səbəbi bir tərəfdən kənd yaşayış məntəqələri ilə müqayisədə şəhərlərdə mədəni səviyyənin yüksək olması, varlı sosial zümrəyə məxsus adamların əsas hissəsinin burada yaşaması ilə bağlı idisə, digər tərəfdən kənd tipli yaşayış yerlərinin arxeoloji qazıntılarla kifayət qədər tədqiq edilməməsidir. Bununla belə son zamanlar kənd yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş tapıntılar orta çağda kənd əhalisinin istifadə etdikləri bəzək məmulatı haqqında müəyyən fikirlər söyləməyə əsas vermişdir.

Orta əsr kənd yaşayış yerlərindən qazıntılar zamanı aşkar edilmiş bəzək məmulatı müxtəlif növ materiallardan-metaldan, şüşədən, gildən və sümükdən hazırlanmışdır. Təyinatına görə onlar sinə, qol, barmaq, geyim bəzəkləri təmsil edir. Onlar materialına, hazırlanma texnologiyasına və formasına görə qrup və tiplərə bölünmüşdür. Arxeoloji qazıntılar aparılmış orta əsr kənd yaşayış yerlərindən toplanmış bəzək məmulatının əsas hissəsini bilərzik və muncuqlar təşkil edir.

Bəzək əşyalarının tədqiqi orta əsrlərdə kənd əhalisinin daha çox şüşədən hazırlanmış bəzək nümunələrindən istifadə etdiyini müəyyənləşdirməyə əsas verir. Bununla yanaşı kənd əhalisi metaldan, sümükdən, müxtəlif növ minerallardan hazırlanmış bəzək əşyalarından da istifadə etmişlər.

Üçüncü fəslin beşinci, sonuncu yarımfəsli "Sikkə tapıntıları" adlanır. Bu yarımfəsildə orta əsr kənd tipli yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar və kəşfiyyat axtarışları zamanı əldə edilmiş numizmatik materiallar təhlil edilmişdir. Kənd yaşayış yerlərindən sikkə məmulatı həm tək-tək, həm də ki, dəfinə şəklində əldə edilmişdir. Numizmatik

materialların təhlili onların əsas hissəsinin Eldəniz və Şirvanşah sülalələrinin adından zərb edilmiş mis sikkələrdən ibarət olduğunu göstərir. Numizmatik tapıntılar içərisində səlcuq Sultanlarının, Xarəzmşahların mis sikkələrinə və bu dövrdə Qafqazın pul dövriyyəsində əhəmiyyətli rol oynayan Bizans imperiyasının qızıl solidlərinə də təsadüf edilmişdir.

Beləliklə, aparılmış arxeoloji axtarış və qazıntılar zamanı orta əsr kənd yaşayış yerlərindən kənd əhalisinin sosial-iqtisadi və mədəni inkişaf səviyyəsini səciyyələndirməyə əsas verən gildən, müxtəlif növ metaldan, şüşədən, sümükdən və daşdan hazırlanmış xeyli artefaktlar toplanmışdır. Əldə olunmuş materialların tədqiqi onların müəyyən hissəsinin kənd yaşayış yerlərinin özlərində istehsal edildiyini, əsas hissəsinin isə şəhər sənətkarlığının məhsulu olduğunu, yaxın şəhərlərdən kəndlərə gətirildiyini deməyə əsas verir. Bütövlükdə orta əsr kənd tipli yaşayış yerlərindən tapılmış maddi-mədəniyyət nümunələri ümummüsəlman mədəniyyəti üçün səciyyəvi olan elementləri özündə ehtiva edir.

Dissertasiya işinin dördüncü fəsli "IX-XIII əsrin əvvəllərində kənd yaşayış yerlərinin sosial-iqtisadi və mədəni inkişafı" adlanır və bu fəsil iki yarımfəslə ayrılır. "Sosial-iqtisadi durum" adlanan birinci yarımfəsildə kənd əhalisinin sosial tərkibi araşdırılmış, yazılı mənbə məlumatları, arxeoloji qazıntılar zamanı əldə edilmiş tapıntılar və etnoqrafik materiallar əsasında IX-XIII əsrin əvvəllərində kənd yaşayış yerlərində yaşayan əhalinin təsərrüfat məşğuliyyəti tədqiq edilmişdir.

Orta əsr şəhər iqtisadiyyatının əsasını sənətkarlıq və ticarət təşkil etdiyi halda, kənd yaşayış məskənləri əhalisi təsərrüfat məşğuliyyətində əkinçilik və heyvandarlıq başlıca sahələr idi.. Buna müvafiq olaraq kənd əhalisinin də əsas hissəsini məhz bu təsərrüfat sahələri ilə məşğul olan sosial qruplar təşkil edirdi.

Arxeoloji qazıntıların nəticələrinin yazılı mənbə məlumatları ilə müqayisəli təhlili orta əsr kənd yaşayış yerlərinin təsərrüfat həyatını müəyyən qədər bərpa etməyə imkan vermişdir. Kənd yaşayış məskənlərində əvvəlki dövrlərdə olduğu kimi IX-XIII əsrlərdə də əhalinin başlıca təsərrüfat sahələri əkinçilik və maldarlıq idi. Əkinçilikdə əsas yeri buğda və arpa becərilməsi təşkil edirdi. Bu bitkilərin becərilməsi əsasən dəmyə xarakteri daşıyırdı. Azərbaycanın dağlıq və dağətəyi ərazilərində yerləşən kənd tipli yaşayış yerlərində münasib coğrafi şəraitin mövcudluğu burada dəmyə əkinçiliyinin inkişafına şərait yaratmışdı. Dəmyə əkinçiliyi ilə yanaşı kənd əhalisi dağlıq və dağətəyi rayonlarda arxlardan, düzən rayonlarda isə çaylardan çəkilmiş kanallardan, qobulardan istifadə edərək süni suvarma

əkinçiliyini inkişaf etdirmişlər. Arxeoloji qazıntılar və yazılı mənbə məlumatlarının müqayisəli təhlili kənd yaşayış məskənlərində əkinçiliklə yanaşı bağçılıq və bostançılığın da inkişaf etdiyini göstərir.

Azərbaycanın əlverişli təbii-coğrafi şəraitə malik olması, su hövzələrinin bolluğu, geniş otlaq sahələrinin varlığı, iqlimin və relyefin rəngarəngliyi heyvandarlığın inkişafına şərait yaratmışdır. Arxeoloji qazıntılar zamanı dövrün kənd yaşayış yerlərində zəngin osteoloji qalıqlara-inək, qoyun, at, keçi, camış, uzunqulaq sümüklərinə təsadüf edilmişdir. Həmçinin yaşayış yerlərində heyvandarlıq təsərrüfatı ilə bağlı materiallara tez-tez təsadüf olunmuşdur. Düzən və dağətəyi ərazilərdə yerləşən kəndlərdə əkinçilik üstünlük təşkil etdiyi halda, yüksək dağlıq ərazilərdə daha çox heyvandarlıq təsərrüfatına üstünlük verilirdi

Arxeoloji və etnoqrafik materiallardan məlum olur ki, IX-XIII əsrlərdə Azərbaycanda oturaq maldarlıqla yanaşı yarımköçəri maldarlıq forması da mövcud olmuşdur. Əlverişli şəraitin olması yarımköçəri maldarlığın formalaşmasında mühüm rol oynamışdır.

Heyvandarlıq təsərrüfatında əsas yeri qoyunçuluq, iribuynuzlu mal-qara saxlanılması və atçılıq tuturdu. Şimal-Şərqi Azərbaycan ərazisində yerləşən Seyidli, Sərkərtəpə, Sandıqtəpə yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar zamanı toplanmış osteoloji qalıqların təhlili qeyd olunan yaşayış yerlərində iribuynuzlu mal-qaraya nisbətən davarın üstünlük təşkil etdiyini söyləməyə əsas verir. Mil düzündə Qaratəpə kənd tipli yaşayış yerindən toplanmış osteoloji qalıqların da çox hissəsini xırdabuynuzlu heyvan sümükləri təşkil edir. I Qıraq Kəsəmən, Faxralı, Daşbulaq, III Hacıalılı kənd yaşayış yerlərindən toplanmış osteoloji qalıqlar içərisində isə iribuynuzlu mal-qara sümükləri daha çoxdur. Kənd yaşayış yerlərində heyvandarlığın atçılıq, qatırçıqlıq kimi sahələri də inkişaf etmişdir.

Kənd tipli yaşayış yerində aparılan qazıntılar zamanı aşkarlanmış emalatxana qalıqları, istehsal tullantıları, həmçinin yazılı mənbə məlumatları əkinçilik və maldarlıqla yanaşı əhalinin təsərrüfat məşğuliyyətində sənətkarlığın müəyyən rol oynadığını deməyə əsas verir. Bu dövrdə maldarlıq və əkinçilik təsərrüfatının yüksəlişi sənətkarlığın, xüsusilə dulusçuluğun inkişafına səbəb oldu. IX-XIII əsrlərdə saxsı məmulatı istehsalı texnikası təkmilləşmişdi. Artıq bu dövrdə təkcə şəhər sənətkarları deyil, həmçinin kənd yaşayış məskənlərində də fəaliyyət göstərən ustalar ayaq dulus çarxından istifadə edirdilər.

Arxeoloji qazıntılar zamanı dulus emalatxanasının qalığı Yurdçu orta

əsr yaşayış yerindən aşkar edilmişdir. Emalatxana ilə yanaşı buradan xeyli miqdarda saxsı materialı da tapılmışdır ki, onların da bir qismi polufabrikatlardır.

Bununla belə orta əsr şəhərlərdə dulusçuluq sənətində ixtisaslaşma getdiyi halda, kənd yaşayış yerlərində bu ixtisaslaşma baş verməmişdir. Kənd yaşayış yerlərindən aşkar edilmiş, yüksək zövqlə hazırlanmış saxsı materiallarının böyük əksəriyyəti buraya yaxın şəhərlərdən gətirilmişdir. Arxeoloji materialların təhlili şəhər sənətkarlarının əhatə dairəsini, daha dəqiq desək hər bir şəhərin nahiyəsini müəyyənləşdirməyə əsas verir.

Arxeoloji qazıntılarla öyrənilmiş I Qıraq Kəsəmən, Yurdçu, III Hacıalılı, Seyidli kənd tipli yaşayış yerlərində dəmirçiliyin izlərinə təsadüf edilmişdir. Dəmirçi emalatxanalarının, kürələrin, metal pasaların tapılması kənd əhalisinin müəyyən qədər dəmirçiliklə də məşğul olduğunu və özlərinə lazım olan zəruri məişət və əmək alətlərini hazırladıqlarını təsdiqləyir.

Arxeoloji qazıntılar yuxarıda qeyd olunan sənət sahələri ilə yanaşı kənd əhalisinin öz tələbatını ödəmək üçün müəyyən qədər sümükişləmə, daşişləmə, ağacişləmə, toxuculuq kimi sənət sahələri ilə də məşğul olduğunu göstərir.

Orta əsr kənd yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar kənd əhalisinin yaşayış evləri, təsərrüfat tikililəri, ictimai-dini binaları haqqında tam təsəvvür yaratmağa imkan vermir. Bunun başlıca səbəbi bir tərəfdən kənd yaşayış yerlərinin arxeoloji qazıntılarla zəif öyrənilməsidirsə, digər tərəfdən aşkar edilmiş tikili qalıqlarının məhdudluğu, dağıntıya məruz qalması, çubuqdan hörülmüş evlərin çürüyərək məhv olması ilə bağlı olmuşdur. Arxeoloji qazıntılar zamanı kənd yaşayış yerlərindən əksər hallarda yaşayış evlərinin döşəməsinin qalıqları, bünövrəsi, divarlarının aşağı cərgələri aşkar edilib öyrənilmişdir.

Orta əsrlərdə Azərbaycanın ayrı-ayrı regionlarında inşaat materiallarının müxtəlif növlərinin mövcudluğundan, əhalinin təsərrüfat məşğuliyyətinin xarakterindən, təbii-coğrafi şəraitdən asılı olaraq yaşayış evlərinin müxtəlif tipləri təşəkkül tapmışdır. Yaşayış evinin tipinə ərazinin oroqrafik quruluşu, təbii-iqlim şəraiti, buradakı inşaat materialının xarakteri kimi amillər öz təsirini göstərmişdir. Kənd yaşayış yerlərində yaşayış evlərinin tikintisində əsas inşaat materialı kimi möhrə, çiy və bişmiş kərpic, çaydaşı, əhəngdaşı, ağac, gil, qarğı, qamış, çubuq, və s. istifadə olunmuşdur.

Dövrün şəhər tipli məskənlərində daşdan və bişmiş kərpicdən inşa

edilmiş ictimai, dini və çoxotaqlı yaşayış evlərindən fərqli olaraq kənd yaşayış məskənlərində çiy kərpicdən və çubuq və ya qamışdan hörülərək üzəri suvanmış, möhrə və çay daşından inşa edilmiş evlər üstünlük təşkil edirdi. Əhali yaşayış evlərin tikintisində həmçinin qayadaşı (qotur daşı), əhəngdaşı və müxtəlif ölçülü kvadrat formalı bişmiş kərpicdən istifadə etmişlər. Xüsusən Naxçıvan bölgəsində qeydə alınmış orta əsr kənd yaşayış yerlərində bişmiş kərpicdən inşa edilmiş evlərə daha çox təsadüf edilmişdir. Təbii rəngə, gözəl fakturaya, istilik texnikası xüsusiyyətlərinə məxsus bişmiş kərpicdən inşa edilmiş tikililərdə çox güman ki, kəndin varlı və tavanalı təbəqəsi yaşamışdır.

Orta əsr kənd yaşayış yerlərində qeydə alınmış tikili qalıqları, inşaat materialları kənd əhalisinin yaşayış evlərinin, təsərrüfat tikililərinin plan quruluşunu, konstruktiv xüsusiyyətlərini araşdırmağa imkan vermişdir. Onlar kompozisiya-plan həllinin və inşaat texnikasının bəsitliyi, memarlıq bəzəyinin olmaması ilə şəhər yaşayış evlərindən fərqlənmişdir. İnşaat işləri müəyyən cizgi, eskiz əsasında deyil, sərbəst şəkildə aparılmışdır.

"Mədəni həyat" adlanan ikinci yarımfəsldə kənd əhalisinin dini görüşləri, məişəti haqqında məlumat verilmişdir. IX-XIII əsrin əvvəllərində ölkədə islam dini hakim din idi. Bunu həm yazılı qaynaqlar, həm də orta əsr yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar sübut etmişdir. İslam dini ölkə əhalisinin hakim ideologiyasına çevrilmişdir. Orta əsr Dərəzarat, Köhnə Pir, Dağbilici, Curuxev kənd tipli yaşayış yerlərinin yaxınlığında müsəlman qəbiristanlıqlarının aşkar edilməsi bunu bir daha sübut edir. Bununla belə aparılmış arxeoloji qazıntılardan və yazılı mənbələrdə verilən məlumatlardan aydın olur ki, orta əsr şəhər yaşayış yerlərindən fərqli olaraq kənd yaşayış məskənlərində qədim adət-ənənələrə, köhnə dinlərə sitayişin qalıqları müəyyən qədər qorunub saxlanmışdır.

Ərəb coğrafiyaşünas-səyyahı əl-Məsudi Qəbələ əhalisi haqqında məlumatında şəhərlilərin müsəlman, kəndlilərin isə xristian olduğunu bildirirdi. Şəki əhalisinə də o, məhz bu baxımdan yanaşır.

Arxeoloji qazıntılar zamanı kənd əhalisinin mədəni səviyyəsini araşdırmağa imkan verən müxtəlif növ materiallardan hazırlanmış məişət avadanlığı aşkar edilmişdir. Onların böyük bir qismini bədii keramika təşkil edir. Saxsı materialının təhlili kənd əhalisinin məişətində sadə, kustar üsulla hazırlanmış saxsı materialı ilə yanaşı, yüksək bədiiliyə malik naxış zənginliyi, rəng çalarlarının əlvanlığı və oynaqlığı ilə göz oxşayan şirli qablardan geniş istifadə etdiyini təsdiq etmişdir. Mətbəxdə əgər yalnız şirsiz saxsı qab-qacaqdan istifadə olunurdusa, süfrə qabları arasında şirli qablar

üstünlük təşkil edirdi. Bəzi kənd tipli yaşayış yerlərindən fayans qab nümunələrinin tapılması varlı kənd sakinlərinin məişətində yüksək bədiliyi ilə fərqlənən qiymətli fayans qablardan istifadə olduğuna dəlalət edir. Kənd əhalisinin məişətində məhdud miqyasda şüşə məmulatı istifadə olunmuşdur ki, bunların da əksəriyyətini ətir qabları təşkil edir.

Nəticə: Dissertasiyanın Nəticə hissəsində ümumiləşdirmələr aparılaraq tədqiqatın əsas nəticələri diqqətə çatdırılmışdır. Qeyd olunmuşdur ki, orta çağda yaşayış məskənləri sistemində kəndlər mühüm yer tutmuş, onlar şəhər yaşayış yerləri ilə sıx qarşılıqlı əlaqədə olmuş, birgə fəaliyyət göstərmişdir. Bir qayda olaraq iri şəhərlərin sıx və geniş kənd nahiyəsi olurdu. Kənd nahiyəsi şəhəri ərzaqla, şəhər sənətkarlığını xammalla təchiz edirdi. Kənd yaşayış yerlərində aparılmış qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət nümunələri içərisində faktiki materiallar da bu fikri təsdiqləyir.

Orta əsr kəndlərinin topoqrafik quruluşu araşdırılmış, ölçüləri müəyyənləşdirilmiş, onların tipoloji təsnifatı verilmişdir. Dövrün kənd tipli yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar nəticəsində və kəşfiyyat axtarışları zamanı əldə olunmuş arxeoloji materialların tipoloji təsnifatı aparılmışdır. Məlum olmuşdur ki, orta əsr kənd əhalisi məişətində sadə kustar üsulla hazırlanmış maddi-mədəniyyət nümunələri ilə yanaşı forma müxtəlifliyi, naxışlanma texnikası, bəzək motivlərinin zənginliyi ilə fərqlənən şirli və fayans qablardan da istifadə etmişlər. Əldə olunmuş materialların tədqiqi onların müəyyən hissəsinin kənd yaşayış yerlərinin özlərində istehsal edildiyini, əsas hissəsinin isə şəhər sənətkarlığının məhsulu olduğunu, yaxın şəhərlərdən kəndlərə gətirildiyini müəyyənləşdirməyə əsas vermişdir.

Araşdırmalar kənd əhalisinin əsas məşğuliyyət sahəsinin maldarlıq və əkinçilik olduğunu təsdiqləmişdir. Bundan başqa kənd əhalisinin bağçılıq tərəvəzçilik, balıqçılıq, ovçuluq kimi yardımçı təsərrüfat sahələri, həmçinin müəyyən dərəcədə ayrı-ayrı sənət növləri ilə o cümlədən, toxuculuq, dulusçuluq və dəmirçiliklə məşğul olduğunu söyləməyə imkan vermişdir.

Aparılmış arxeoloji tədqiqatlar zamanı kənd yaşayış yerləri yaxınlığında aşkar edilmiş müsəlman qəbiristanlıqlarının qalıqları və yazılı mənbə məlumatları orta çağda şəhərdə olduğu kimi kəndlərdə də islam dininin hakim mövqe tutmasına dəlalət edir.

Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərində əksini tapmışdır:

1. Orta əsr kənd tipli yaşayış yerlərinin topoqrafiyasına dair. AMEA aspirantlarının elmi konfransının materialları. Bakı, Elm, 2010. s.384-386.
2. Yaqut əl-Həməvinin "Mücəm əl-buldan" əsərində Azərbaycan kəndləri haqqında. Ümummilli Lider Heydər Əliyevin 87-ci ildönümünə həsr olunmuş "Müasir elmin aktual problemləri" Respublika Elmi Konfransının materialları. Lənkəran Dövlət Universiteti, Lənkəran, 2010, s.111-112
3. IX-XIII əsrin əvvəllərində Azərbaycan kəndlərinin təsərrüfat həyatı. Ümummilli Lider Heydər Əliyevin 87-ci ildönümünə həsr olunmuş "Müasir elmin aktual problemləri" Respublika Elmi Konfransının materialları. Lənkəran Dövlət Universiteti, Lənkəran, 2010, s.112-113.
4. Orta əsr Azərbaycan kəndlərinin yaşayış evlərinə dair. Ümummilli Lider Heydər Əliyevin 88 - ci ildönümünə həsr olunmuş "Azərbaycanın inkişaf strategiyası və aktual elmi problemlər" Respublika Elmi Konfransının materialları. I hissə Lənkəran Dövlət Universiteti, Lənkəran, 2011, s.112-113
5. IX-XIII əsrin əvvəllərində Azərbaycan kəndlərinin təsərrüfat həyatı. / Azərbaycan arxeologiyası , № 2, Xəzər Universitetinin nəşri, Bakı - 2011, s.49-55.
6. Gəncə-Qazax bölgəsinin kənd yaşayış yerlərinin arxeoloji tədqiqi. / Dayanıqlı inkişaf və idarəetmə modelləri: nəzəriyyə və praktika. Beynəlxalq konfransın tezisləri. Lənkəran Dövlət Universiteti. Lənkəran - 2011. s.69-70.
7. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahların əsərlərində Azərbaycan kəndləri. / Bakı Dövlət Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, № 4. Bakı, BDU nəşri, 2012, s.138-144.
8. Orta əsr kənd tipli yaşayış yerlərinin öyrənilməsi tarixindən. Ümummilli Lider Heydər Əliyevin 89-cu ildönümünə həsr olunmuş "Müasir elmin aktual problemləri" Respublika Elmi Konfransının materialları. Lənkəran Dövlət Universiteti, Lənkəran, 2012, s.114-117.
9. Vilvan kənd tipli yaşayış yeri. / Gəncə Dövlət Universitetinin xəbərləri. Humanitar və Təbiət elmləri seriyası, № 4, Gəncə, 2013. s.228-232

10. Orta əsr kənd tipli yaşayış yerlərindən aşkar edilmiş bəzək əşyaları. / Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu. № 1, Bakı - 2013. s.85-90
11. Gəncə-Qazax bölgəsinin kənd yaşayış yerlərinin arxeoloji tədqiqi. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. / Bakı Slavyan Universitetinin. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, № 2, Bakı, 2013, s.311-315
12. О средневековых поселениях сельского типа Азербайджана. / Ученые записки Орловского Государственного Университета. Орел, 2013, №2(52), с. 18-20.
13. Archaeological research of medieval rural settlement in the period of independence. / The necessity, admissibility and adequacy of measures for overcoming social-political crises of modern society. Materials LXXI International research and practice conference, London, 2014, p.74-76

**Bayramov M.C.**

**Medieval rural settlements of Azerbaijan**
**(In IX early XIII century)**

## SUMMERY

Dissertation is dedicated to the medieval rural settlements of Azerbaijan in IX and early XIII centuries. It was written on the basis of archaeological and found materials, survey character, writing sources.

Dissertation consists of an introduction; forth chapters, a conclusion, lists of references, a map of medieval rural settlements and an illustrative album attached to work. In the "Introduction" is shown the purpose and duties of the work, chronological frame, and investigated object, degree of investigated problem, scientific innovation and practical importance.

The first chapter which is called "The studying history of Azerbaijan medieval rural settlements" investigated studying history of Azerbaijan medieval rural settlements. This chapter divided into three parts.

In the second chapter which is called "Archaeological features of the medieval rural settlements" IX-XIII century's Arab geographer travelers' information of about the medieval rural settlements gathered and given archaeological character of the rural settlements.

In the third chapter named "Classification of the archaeological materials found in the medieval rural settlements" consists of five parts. Questions of ceramic materials are indicated in the first part. Metal products used for various purposes investigated in the second part, third part consists of materials of glasses, bones and stones. In the fourth part investigated "Ornaments", fifth last part devoted to coins which found in the medieval rural settlements of Azerbaijan.

In the fourth chapter of the dissertation called "Social-economic and cultural development of the medieval rural settlements in IX and early XIII centuries" are studied social-economic situation and cultural development of the population of the rural settlements.

The results and analyses of this investigation are given in the conclusion of the work.

**М.Дж. Байрамов**

# Средневековые поселения сельского типа Азербайджана ( IX- начало XIII веков)

## РЕЗЮМЕ

Диссертация, написанная на основе археологических материалов, полевых исследований, письменных источников, посвящена средневековым сельским поселениям Азербайджана IX - XIII веков.

Диссертация состоит из введения, четырех глав, заключения, списка использованной литературы, списка принятых сокращений, карты средневековых сельских поселений и иллюстративного альбома, приложенного к работе. Во «Введении» обоснованы актуальность темы и цель работы, указаны хронологические рамки, степень изученности проблемы, источниковедческая база, научная новизна и практическая значимость исследования.

В первой главе «История изучения средневековых населенных пунктов сельского типа» исследована история средневековых поселений Азербайджана сельского типа.

Во второй главе «Археологические особенности средневековых сельских поселений» собрана информация арабских географов и путешественников IX-XIII веков и дана характеристика сельских поселений.

Третья глава «Классификация археологических материалов, выявленных в средневековых сельских поселениях» объединяет пять разделов, в которых последовательно исследованы средневековая керамика, изделия из металла, украшения, монеты, археологически выявленные в средневековых сельских поселениях

В четвертой главе «Социально-экономическое и культурное развитие в средневековых сельских поселениях в IX - начале XIII веков», рассматривается социальный состав, экономическая активность населения.

Результаты и выводы исследования приведены в заключении диссертация.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ АРХЕОЛОГИИ И ЕТНОГРАФИИ**

***На правах рукописи***

**МУШФИГ ДЖАБИР оглы БАЙРАМОВ**

# СРЕДНЕВЕКОВЫЕ ПОСЕЛЕНИЯ СЕЛЬСКОГО ТИПА АЗЕРБАЙДЖАНА (IX - НАЧАЛО XIII ВЕКОВ)

**5505.02-Археология**

**А Ф Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктор философии по истории**

**БАКУ-2015**